# KİTABXANALARDA ELEKTRON RESURSLARLA İŞİN TƏŞKİLİNDƏ KİTABXANAÇI-MÜTƏXƏSSİSLƏRİN ROLU

**Ulduz Manafova**

*BDU, Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının dissertantı*

Hər bir xalqın, dövlətin mədəni səviyyəsinin göstəricisi olan kitabxanalar ən böyük informasiya mənbəyi olub insanların bu qiymətli xəzinənin qorunmasını, nəsildən-nəslə ötürülməsini həyata keçirirlər. Xalqımızın əsrlər boyu yaratmış olduğu qədim və bənzərsiz mədəniyyətin tərkib hissəsi kimi kitabxanalar dünya mədəniyyətini misilsiz incilərlə zənginləşdirən mənəvi sərvətimizin qorunub saxlanılmasına xidmət edirlər. Qədim zamanlardan indiyə kimi kitabxanaların əsas funksiyası insanlara informasiya vermək, cəmiyyət üzvlərinin informasiyadan istifadə etməsini təmin etməkdir. Oxuculara xidmət işini yaxşılaşdırmaq üçün hər bir kitabxana birinci növbədə öz fondunu oxucuların qarşısında geniş və hərtərəfli açmalıdır.

Tezisdə qısaca da olsa şərh edilən elektron resurslar sistemi müasir dövrün kitabxanalarının onlayn bazasının əsas xarakteristikasını əks etdirir. Müasir kitabxanaçılar tələbatı günbəgün artan və genişlənən oxucuların elektron kataloq vasitəsilə tez bir zamanda unikal və təzə məlumatlar almaları məqsədilə onların dünya informasiya məkanına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə etmələri üçün geniş imkanlar yaratmalıdırlar. Bu baxımdan Azərbaycanda kitabxana işinin inkişafında kitabxanalarda elektron resurslarla işin təşkili yeni mərhələyə başlanğıc verən mühüm sənədlər Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (20 aprel 2007) və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın (6 oktyabr 2008) təsdiq edilməsi haqqındakı sərəncamlarının həyata keçirilməsi kitabxana quruculuğunun Azərbaycan dövləti tərəfindən prioritet sahə kimi müəyyənləşdirilməsini təsdiq edir. Dövlət Proqramı kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, Respublikada kompüterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması, elektron məlumat bazalarına malik olan elektron kataloq sisteminin təşkili, kitabxanaların kompüter və informasiya-proqram təminatı, Azərbaycan Respublikasının milli-mədəni irsinin və informasiya ehtiyatlarının qorun-





ması, gələcək nəsillərə çatdırılması, kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi, kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, optimallaşdırılması və kadr islahatlarının həyata keçirilməsi və s. məsələləri əhatə edir.

Müasir kitabxanaçı təkcə bədii ədəbiyyat, elmi çap məhsulları və informasiya ilə əlaqədar oxucu tələbatının bilicisi deyil, həm də informasiya mənbələrinin yaradılması və istifadəsi texnologiyası sahəsində mütəxəssis, internet elektron şəbəkədə naviqator, informasiya-kitabxana sferasında menecer, kitab nəşriyyatı bazarının aktiv subyektidir. Bu baxımdan kitabxanalarda elektron resurslarla işin təşkili məsələlərində Respublika kitabxanalarının inkişafında İKT texnologiyalarından istifadə olunması orada elmin bütün sahələrinə təsir etmiş olur və tezisin mövzusunun aktuallığını əks etdirir.